# HİKMƏT MAHMUDUN ÖZÜ VƏ SÖZÜ,

## YAXUD "ÖZÜ HİKMƏT, SÖZÜ HİKMƏT" KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR



**Şəddat CƏFƏROV**

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

***(Əvvəli ötən sayımızda)***

Onu da deyim ki, E.Mehrəliyev də təsdiqləyir ki, H.Mahmudun ömrünün əsas hissəsi Sovet dövrünə təsadüf etsə də, o Sovet şairi kimi özünü görməyib. Görünür, gücünü təbiətdən alan insan təkbəşər ideyaların axır ki, nə zamansa tarix səhnəsindən silinib gedəcəyini bilirmiş.

İndi çoxlarını özünün zamanında etirazçı olduğunu göstərməyə çalışır. Amma kitablarını açan kimi Leninin tərənnümünü, kommunist partiyasının idealizə olunmasını göstərən şeirləri ilə rastlaşırıq. Hələ poemaları, daha irihəcmli əsərləri yazmaqla tribunalardan gur-gur guruldayanları demirəm.

Hikmət Mahmud elə yaradıcılığının əzəlindən Azərbaycan təbiətinə güvəndiyi üçün onun əsas istinadı, tərənnüm obyekti, bir sözlə, Lenini, oktyabrı, partiyası elə vətənin təbiəti olub. Doğma xalqı onun üçün yad ideyaların daşıyıcılarından daha üstündür. Bu məqamları Elçin Mehrəliyev daha səmimi və daha qabarıq göstərir: *"Bəri başdan deyim ki, bu kitabın - "Özü Hikmət, sözü hikmət" kitabının müəllifi Əli Rza Xələflinin dediyi kimi Hikmət Mahmud az-az şairlərimizdəndir ki, o Sovet şairi olmayıb. Yəni onun Sovet dövründə nəşr olunan hər hansı bir kitabında "Lenin", "oktyabr", "partiya" mövzusunda bircə şeirinə də rast gəlmək olmur. Zənnimcə, bu, şairin mənəvi azadlığından başqa onun poeziyada təmənnasız olduğuna bir sübutdur. Yəni poetik yaradıcılığı ilə mükafat və rütbə sarıdan tamahsız olub. Deməli, həyatını, mənəvi mühitini sağlam düşüncə üzərində quran idealı əbədi obraz olan (vətən, insan, təbiət) şair üçün ən böyük mükafat oxucu sevgisini qazanmaqdır. Nə xoşbəxt ki, Hikmət Mahmud öz sağlığında belə bir sevgini yaradıcılığı ilə qazanıb".* Azərbaycanın görkəmli yazıçısı və alimi hiss olunur ki, Hikmət Mahmudun tərcümeyi-halındakı bu şərəfli məqamı onun tale uğuru kimi qiymətləndirir. Çünki ona ideal sevgi üçün əsas vətənin dəyərləri olub.

Hər bir şairə öz xalqının sevgisini qazanmaq asan olmur. Hətta bəzən bir çox şairlər öz zamanlarında diqqətdən kənarda qalırlar. Ancaq Hikmət Mahmud səmimi və təbii yaradıcılığı ilə insanların qəlbinə daxil ola bilib. Öz sözü ilə, dilinin şirinliyi ilə xalqın ruhuna, varlığına hopub.

Professor Elçin Mehrəliyev *"Özü Hikmət, sözü hikmət"* kitabını diqqətlə öyrəndiyi üçün belə bir qənaətə gəlir ki, müəllif qarşısına Hikmət Mahmudun poetik yaradıcılığı haqqında elmi monoqrafiya yazmaq məqsədini qoymayıb. Çünki kitabdakı ayrı-ayrı məqalələr Hikmət Mahmudun kitabları, yeni nəşr olunan əsərləri haqqında isti-isti yazılan təəssüratlardır. Ancaq hər bir məqalədə Elçin Mehrəliyevin göstərdiyi kimi şairin sənətinə dəqiq və səmimi yanaşma var: *"Müəllif tədqiqat üçün qarşısına konkret elmi mövzu, elmi mətləb qoymur. O, ayrı-ayrı zamanlarda Hikmət Mahmudun ədəbi yaradıcılıq yolunu izləyir, diqqətini çəkən, onu mənən səfərbər edən poetik örnəklərə və həm də demək, Hikmət Mahmudun yaradıcılıq hesabatları kimi nəşr olunan kitablarına, şeirlərinə, poemalarına münasibət bildirir. Özü də bu münasibətlər kifayət qədər Hikmət Mahmudun yaradıcılıq örnəklərinə cavab verəcək emosionallıqla az qala poetik örnəklər səviyyəsində hisslər və həyəcanlarla qələmə alınır. "Özü Hikmət, sözü hikmət" kitabı H.Mahmudu bir neçə cəhətdən xarakterizə edir. Biz onu şair kimi görürük, eyni zamanda onun cəfakeş alim olduğunu Əli Rza Xələflinin təqdimatında daha aydın qavrayırıq. Və geniş oxucu auditoriyasına məlum olmayan nəsr yaradıcılığının da kifayət qədər dəyərli olduğunu öyrənirik. Bütün bunlar onu göstərir ki, müəllif öz kitabında ustad sənətkarın yaradıcılıq taleyini əsil vətəndaşlıq məsuliyyəti və varislik doğmalığı ilə axıracan, səbirlə, dözümlə izləyir".* Elçin Mehrəliyev dəqiq göstərir ki, kitabın müəllifinin yanaşması üçün əsas şairin Azərbaycan təbiətinə və Azərbaycan xalqına doğmalığıdır. İnsan özünü qoynunda doğulub-böyüdüyü təbiətə doğma bilirsə, onu daha yaxşı öyrənəcək və onu daha dərindən sevəcək. Zənnimcə, kitabın redaktorunun qeydlərində bu motiv kifayət qədər təsdiq olunub. Onu da deyim ki, Elçin Mehrəliyev də kitabın rəyçisi filologiya elmləri doktoru, professor Yədulla Ağazadənin annotasiyada əksini tapmış qeydləri ilə şərik olduğunu təsdiqləyir. Çünki bir rəyçi olaraq görkəmli ədəbiyyatşünas alimin ilkin qənaəti oxucunun kitabı daha düzgün başa düşməsi üçün kifayət qədər səmimi belədçidir.

Elçin Mehrəliyev düşüncələrinin sonuna yaxın Hikmət Mahmudun ədəbi taleyinə də münasibət bildirir. Onun qeydlərində göstərildiyi kimi xalqına doğma olan şairi xalq zaman-zaman yaddaşında saxlayır və onu əzizləyir. Yaxşı olar ki, elə Elçin Mehrəliyevin öz qeydlərini oxuyaq: *"Hikmət Mahmud ədəbi-elmi yaradıcılığı ilə bir əbədi ömür qazandı. Əli Rza Xələfli də Hikmət Mahmud obrazına məhəbbətlə qələmə aldığı "Özü Hikmət, sözü hikmət" kitabı ilə görkəmli alimə və müdrik sənətkara əbədiyaşarı bir abidə - söz abidəsi yaradıb. Qədim daş yazılarından birində deyildiyi kimi, "Biz gedərik, əməlimiz bizdən sonra kimliyimiz haqda danışar" bir böyüklük var; öz böyüklüyü".* Bəzən bizə elə gəlir ki, ustadları, korifeyləri, böyük söz adamlarını ancaq keçmişdə axtarmalıyıq. Göründüyü kimi Elçin Mehrəliyevin qeydləri dövrümüzə daha yaxından baxmağı, daha doğma yanaşmağı təlqin edir.

Əlbəttə, Ə.R.Xələflinin *"Özü Hikmət, sözü hikmət"* kitabı dostum Hikmətin yaradıcılığına daha yaxından işıq tutduğu üçün mənim də diqqətimi cəlb edib və gələcək nəsillər üçün özümə mənəvi borc bilirəm ki, bu kitabın məziyyətləri haqqında geniş danışım.

Hikmət Mahmudun yazı taleyi əgər belə demək mümkünsə, xoşbəxt günlərini də yaşadı. Birincisi, əzəlindən azad ruh sahibi olduğu üçün bir gün kommunist partiyasının dəmir pəncəsinin qırılacağına inandığından onu tərənnüm etməmişdi. Eyni zamanda o böyük oktyabr sosialist inqilabının da nəticəsi olaraq yaranmış, dünyanın çox böyük hissəsini əhatə etmiş və bu çevrədəki xalqları bütövlükdə sovet xalqları adlandıran dövlətin də əbədi varlığına inanmırdı. Elə ona görə də onun yarım əsrdən çox davam edən zəngin yaradıcılığının hər hansı bir səhifəsində nə yalançı beynəlmiləlçiliyin tərənnümü vardı, nə də oktyabra sevgi və rəğbət nişanları...

Həyatı dərindən duyaraq, başa düşərək yaşamış sənətkar üçün Azərbaycanın gələcəyi daha çox önəmli idi. O, sanki şairlik intuisiyası ilə mövcud quruluşun gec-tez çökəcəyini qabaqcadan görürdü. Beləliklə, nəhəng Sovet dövlətinin çöküşü ilə müstəqil dövlətlərin yaranması ideyası gerçəkləşdi. Və məhz biz istiqlalına qovuşmuş Azərbaycanın üçrəngli bayrağının BMT-nin binası önündə dalğalanmasına da şahid olduq. Yəqin ki, Hikmət Mahmud da öz xalqının beləcə azadlığa qovuşmasından məmnun idi. O, Azərbaycanın istiqlalı ilə fəxr edə bilmək imkanı qazandı. Tale ona ömrünün xeyli hissəsini Azərbaycanın müstəqillik dövründə yaşamağı qismət etdi.

Mən yuxarıda demişdim axı, Hikmət Mahmudun mənsub olduğu ailə ilə, xüsusilə onun böyük qardaşı Rəşid Mahmudovla da birgə işləmişdim. Zamanın tələblərinə əməl etməyə məcbur olsa da, Rəşid Mahmudov da bir xarakter kimi öz müstəqilliyini qoruyub saxlayırdı. Bu xüsusiyyətləri şair Hikmət Mahmudda da görmək mənə məmnunluq gətirirdi.

Hər halda hər bir sənətkar yaşadığı dövrdə zəhmətinə verilən qiyməti yazıb-yaratdığının dəyərini cəmiyyətin rəğbətli münasibəti ilə alanda özünü daha çox xoşbəxt hiss edir. Bu mənada Əli Rza Xələflinin *"Özü Hikmət, sözü hikmət"* kitabı Hikmət Mahmudun yaradıcılığına verilən ən yüksək dəyərlərdən biri hesab olunmalıdı.

Hikmət Mahmudun yaradıcılığında dilimizin imkanlarından ustalıqla bəhrələnməklə Azərbaycanın zəngin mənəvi mühitini öz poeziyası ilə əks etdirə bilib. Kitabın müəllifi Hikmət Mahmudun şair təbiətini özünəməxsus publisistik notlarla açə bilir. Müəllif *"Könül səsi, bahar nəfəsi"*, yaxud *"Ömür intizarından yarpaqlar"* adlı kitabda verilmiş birinci məqaləsinin başlanğıcındaca yazır: *"Elə sənətkarlar var ki, onların haqqında danışmaq, onların poetik obrazını şəkildə ifadə eləmək bəzən çox çətin olur. Yaradıcılıq taleyi XX əsrin ikinci yarısından özü bəri böyük bir zamanı əhatə edən şair Hikmət Mahmud da sözlərin sadə qəlibinə sığışmır. Necə ki, onun səmimi, təbii poeziyası məhdud dairədə qapanıb qalmır. Dilimizin, musiqimizin, ədəbiyyatımızın, bir sözlə, bütövlükdə mədəniyyətimizin mənəvi səmasında öz qanadları ilə uçaraq ruhu söz üçün acılıq çəkənlərə təskinlikdir. Çünki onun illər boyu yaratdıqları sözün həqiqi mənasında ürək çırpıntılarının bəhrəsidir. Parçalanmış qayanın bir salı, sürüşmüş torpağın kəsiyi, bir dağ döşündə hələ yazın isti nəfəsi gəlməmiş açan çiçəklərin intizarı... onun üçün poeziyadır".* Doğru deyir, Hikmət təbiətin dilini yaxşı bilən sənətkar idi, ona görə də elə qartalın uçuşu da, torpağın uçqunu da, müəllif demiş, çiçəklərin yaz intizarı da onun üçün elə görünüşündəncə yazılmamış sənət lövhələri idi.

Hikmət Mahmud ömrü boyu insanların mənəviyyatına saflıq duyğuları aşılamağa çalışıb. Onun çox dəyərli poeziyasından insanları həyatdan küsdürən notlar yoxdur. O, insanın ruhunu hər vəchlə qanadlandırmağa, insanları həyatı sevməyə çağıran əsərlər yazıb.

Hikmətin ən böyük nigarançılığı insanların taleyi ilə bağlıdır. O hər vəchlə şeirlərini belə bir ideyaya tabe tuturdu ki, insanlar sözdən açar kimi istifadə edə bilsin. Həyatın sirlərini özü üçün aça bilsin. Biz bu məqamları Hikmət Mahmudun *"Çiçəklərin intizarı"* lirikasından ibarət topluda da görürük. Elə kitabın adına da diqqət etmək bəs edir ki, onun hansı hisslərlə yaşadığını başa düşəsən.

Mən çox görmüşəm, yazqabağı hələ qarlar əriməmiş baharı gözləməyə səbri çatmayan çiçəklər açılır. Doğrudur, bəzən bahar intizarı ilə vaxtı qabaqlayan bu çiçəkləri qar, çovğun dondurur. Amma hər halda bu çiçəklər bahardan xəbər gətirir. Öz intizarı ilə insanları da yazı qarşılamağa çalışır. Müəllif *"Özü Hikmət, sözü hikmət"* kitabında şairin bu duyğulanmalarını şairin yazı tərzinə uyğun poetik çalarla oxucuya çatdırır: *"H.Mahmud sözünü mayasındakı hikmətin sehri, ecazı təbiətdən gəlir. İntizar çəkən, yaz nəfəsi arzulayan çiçəklərin sözdə təzahür edən gözəlliyi onun digər təbiət lövhələrində də təbiətdə olan rənglərə uyğun görünür:*

*Çaylar qayalardan incimiş kimi,*<br>
*Düşüb dağ önündə açar dərdini.*<br>
*Enəndə dərəyə, düzənliklərə,*<br>
*Lal axar, çöllərə verməz sirrini.*

*Nə gözəldir, dağ çayları sanki dağlardan baş götürüb qaçır, elə bil ki, dağlar ona həyan olmadığı üçün, dağlar onu dinləmədiyi üçün harayla, fəryadla onu qucaqlayacaq, onu ağuşuna alıb həzin-həzin layla çalacaq bir ana, bir sevgili aləm axtarır. Və beləcə dağ çayları qayalardan incik düşsə də, dağların ətəklərində, düzənlikdə özünə həyan tapır. Yayılır, könül pıçıltıları ilə qayaların arasından keçib gəldiyi ömrü bir əfsanə kimi, bir nağıl kimi danışır. Və həm də hələ axıracan sözünü demir, düzənliklər boyu lal sükutla axıb dənizə çatmağa can atır".* Hörmətli oxucunun özü də bu cümlələrin necə poetik bir nəfəs kimi gəldiyini hiss edə bilər.

***(Davamı 11-ci səhifədə)***

# HİKMƏT MAHMUDUN ÖZÜ VƏ SÖZÜ,

## YAXUD "ÖZÜ HİKMƏT, SÖZÜ HİKMƏT" KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR

*(Əvvəli 10-cu səhifədə)*

Hətta Hikmət Mahmudun çox dəyərli şeirlərindən bir bəndi də yazının təsir gücünü artırmaq üçün yerində istifadə edib. Mənə elə gəlir ki, Hikmət Mahmud öz poeziyasında daha çox təəssüratlarının hissləri, duyğuları ilə qovuşması əsasında yaradıb. Onun şair təbiəti tanrıdan izinli olduğu üçün şeirlərini də ilhamla yaradıb. Sanki onun şeirləri dağ çeşməsi kimi dumdurudur, safdır və elə çeşmələrin özü kimi çağlardır.

Hikmət Mahmud sonrakı kitablarında da təbiət saflığının təsirini qoruyur. Onun çox maraqlı bir kitabı da var: "Qocalmağa tələsmə" (1982). Bu kitabın mahiyyətində belə bir ideya dayanır ki, insan nə qədər yaşayırsa, özündə, varlığında güc, enerji hiss edirsə, demək, həyat hələ bitməyib. O, həyatın məhz qocalıqla bitəcəyini qətiyyən düşünməməlidir.

Dünya ədəbiyyatında da elə görkəmli simalar var ki, onlar ən dəyərli əsərlərini 60, hətta 70 yaşdan sonra belə yaradıblar. Mənə elə gəlir ki, Hikmət Mahmud da elə qocalıq obrazını yaratdığı həmin kitabda da bu mətləbi insanlara çatdırır ki, hələ 60-70 yaşdan sonra da, lap elə 80-də də həyatın sirlərini öz sözlərinlə açə bilərsən. Müəllif bu məqamı da kifayət qədər dəqiq cizgilərlə verir: "Bir sözlə, o, cəmiyyətə bütün müdriklərin aşılamaq istədiyi ən böyük hikməti təlqin edib. Ömrü qurtarmağa tələsmə, başqa sözlə, elə "Qocalmağa tələsmə" (1982) kitabının adında ifadə olunan mənaya, mahiyyətə çağırıb. İnsan gəncliyində, cavanlığında yaşadığı ömür ilə dünyanın üzünə təzə bir rəng gətirməlidir. Dünyanı, həyatı daha yaşarı etməlidir. Əgər bu dünyadan bütün müdriklər öz paylarına düşən cəmiyyətə, insanlara verdikləri gözəllik payını götürsəydilər, onda bu dünya hansı rəngdə görünərdi? Bu dünyanın eybəcərlikdən başqa bir tərəfi olardımı?

Könüllərdə, baxışlarda gülər yaz,
Yar yarına rast gələndə can desə.
Qara saçlar vaxt-vədəsiz ağarmaz,
Dil-dodaqlar dərd böləndə can desə.

Elə bil ki, həyat düsturu verib. Ömrü necə qorumağın yolunu göstərir və sözlər də onun özünü təbiətindəki ahənglə axıb gəlir". Bu duyğulanmalar göstərir ki, Hikmət Mahmud üçün əsas istinad mənbəyi mənsub olduğu xalqdır, doğma vətənidir və ən başlıcası, vətənin təbiətidir.

Kitabda Hikmət Mahmudun "Geologiya tariximizə nəzər" adlı geniş məqalə verilib. Ancaq mən kitabın elmi məziyyətləri haqqında bəhs edən bu yazının əhatəli təhlilinə yer vermədən bir məqama diqqəti çəkmək istərdim.

Hikmət Mahmud bir qədər obrazlı desək, geoloq olduğu üçün yerin altını da yaxşı bilirdi. Yerin altında nələr ola biləcəyindən xəbərdar idi. Ona görə də onun "İsmayıllı zəlzələsi" adlanan şeirindən bir parça ulu Nizaminin Gəncə zəlzələsi ilə bağlı düşüncələrini də yaddaşımıza gətirir. Hikmət Mahmud "İsmayıllı zəlzələsi" adlı dəyərli bir məsnəvi yaradıb. Həmin məsnəvidən bir parçanı oxucularıma da çatdırmaq istərdim:

**Ağsaqqal, ağbirçək dərddə, kədərdə,**
**İnsanlar matəmdə, yasdı hər yerdə.**
**Bu cənnət diyarda vardı min zinət,**
**Verdiyini nə tez aldı təbiət.**
**El nələr çəkmədi bu zəlzələdən,**
**Neçə insan getdi obadan-eldən,**
**Təbiət çox zaman sevinc veribdi,**
**Bəzən də beləcə dərd gətiribdir.**

Bu misralar bizə təbiətlə ehtiyatla davranmağı təlqin edir. Şair yaxşı bilir ki, insanın təbiətə müdaxiləsi nə qədər çox olarsa, təbiətin də buna etirazı bir o qədər sərt olacaq. Hər halda, təbiətdə baş verən çevrilmələr, aşınmalar insanın təbiətə müdaxiləsi ilə daha çox bağlıdır. Şair də əslində elə buna görə xəbərdarlıq edir.

Kitabda bir maraqlı yazı da diqqətimi cəlb edir;"Yerin altını da, üstünü də bilən şairin ədəbi sözü, əbədi sözü". Başlıq üçün bir qədər uzun olsa da yazıya ünvan kimi verilmiş bu cümlə bizə Hikmətin elmi və mənəvi potensialını göstərir.

Əli Rza Xələflinin Hikmət Mahmudun təbiətlə bağlı şeirlərinə xüsusi diqqəti mən deyərdim ki, daha çox təbiət sevgisindən irəli gəlir. O hiss edəndə ki, Hikmət Mahmud təbiəti gözəllik tablosu kimi görür, bu onu da ilhamlandırır. Görünür, elə bu səbəbdən Ə.Xələfli ilhamla yazır: "Vallah, kim nə deyir, desin, bəlkə də kimsə sözdə min cür "əllamə" axtarır, ancaq mən Hikmət Mahmudun səmimi duyğulanmalarının qabağında istər-istəməz əllərimi qaldırıb deyirəm: vallah, bu, şeirdir:

Çağırdıq torpağa can verən qarı,
Var olsun çayların ağ, buz aynası.
Salam, uşaqlığın qar oyunları,
Salam, nənələrin nağıl dünyası.

İndi gərək ədəbi tənqidin qaydalarını pozmadan söz sənətinin ən dəyərli örnəyi kimi yazılmış, yaradılmış bu dörd misranın dəyərini, ədəbi gücünü göstərən fikir laylarını çevirəsən. Əlbəttə, bu bir ədəbi ənənədir, ancaq təkcə elə nənələr sözündəki misranın, fikrin bütün laylarını göstərən mənaya diqqəti yönəltmək bəsdir. Axı nənə heç ənənənin nə olduğunu bilmirdi, amma ənənəni ruhunda, varlığında yaşadırdı". Bu sətirləri oxuyanda adama elə gəlir ki, müəllifin yanındadır. Onun haqqında danışdığı şairi necə görürsə, bu sətirləri oxuyanın özü də şairi eləcə görür.

Bütün hallarda yazı yazmaq əzablı işdir. Sözün haradan başlayıb, harada bitməsini gərək qabaqcadan duyasan, hiss edəsən. Mənə elə gəlir ki, elə Lev Tolstoy da nəhəng romanlarında sonluğu həmişə qabaqcadan görüb.

Bir sözlə, əgər yazı əzablı işdirsə, poetik yazı ondan da əzablıdır. İnsan gərək öz içindən yansın, alovlansın ki, onun hissləri, duyğuları şeirə, poeziyaya çevrilsin.

Hikmət Mahmudun yazı aləmini, yaradıcılıq iztirablarını müəllif "Özü Hikmət, sözü hikmət" kitabı boyunca yazıya gətirməkdən yorulmur. Yeri gəldikcə, Hikmətin öz duyğularına istinad edir və bununla da özü ilə şair arasında çox ciddi mənəvi bağlılıq yaradır. Daha bir məqama da diqqət edək: "Yaradıcılıq əzabı... Yad bir səs gələn kimi darmadağın olub gedir. Amma görünür, Hikmət Mahmudun mənəvi dünyasına yad səs ən azı altmış il - iki qərinə ərzində daxil ola bilməyib. Və elə yuxarıdaca bircə bəndini gətirdiyimiz şeirin ruhu onun yaradıcılığının kredosu olub. Vallah çətindir, deyəsən, dediyin də doğru olar. Qabaq-qarşı tərəf gözünü döyüb baxa. Qalırsan mat-məəttəl. İndi mən axırını göstərdiyim şeirin əvvəlinci iki bəndini də təkrar eləyirəm:

Şəlalə hörüklü, bulud papaqlı,
Dağlar da ağ geyər, dərələr də ağ.
Yerin bərəkəti səninlə bağlı,
Salam, ay qış baba, salam, ay qonaq.

Şaxta meydan açar, qıy vurar külək,
Düzənlər, ağ çöllər qar naxışında.
Sevinər qədrini bilər hər ürək,
Qədəmi xoş gəlsə, qarlı qışın da.

Kimsəyə asan gəlməsin... şeirə bir neçə dəfə istinad etmək...

Düşünürəm ki, bu, sözün gücünü göstərmək baxımından sözü şərh edənlə, indiki anlamda tənqidçi ilə müəllif arasında bir döyüşdür. Fikir, təfəkkür, düşüncə döyüşüdür". Bütün bunlar onun göstəricisidir ki, Hikmət Mahmudun yaradıcılığında iki ideal - təbiət və insan əvvəlindən axırınacan qoşa addımlayır. Hətta bəzən eyni şeirdə Hikmət Mahmudun insan və təbiət obrazları yanaşı verilir. Bu obrazlar onun şeirlərində bir-birini tamamlayır.

Hikmət Mahmud sözü açıq və bütün kəskinliyi ilə deməyi bacaran şair idi. O, cəmiyyətdəki neqativ halları, rüşvəti, yalanı, yaltaqlığı özünə həyat devizi seçmiş antipodları kəskinliklə qamçılayıb. Onları poetik ifşasının hədəfinə çevirib. Kitabda verilmiş maraqlı şeirlərdən birinin son bəndinə diqqət edək:

Süni gülüş, yalan istək başlanar,
İş düzəlib düşənəcən sahmana.
Söylə, "dostum", bu sifətlər, bu xallar,
Yaraşarmı insanlığa, insana?..

Tutarlı sualdır. Ritorik olsa da, cavabı hər kəsə məlumdur. Bircə onu əlavə eləmək qalır ki, bu elə şairin döyüşüdür, şairin mübarizəsidir, insanlıq uğrunda mübarizəsidir.

Hikmət Mahmud Qarabağın işğaldan azad olunmasını bəxtiyarlıq hissi ilə qarşıladı. Onun son şeirlərindən biri "Azərbaycan-Türkiyə qardaşlığı" adlanırdı. Bu şeirində o, Azərbaycanın sarsılmaz gücü üçün Türkiyə ilə qardaşlığı əsas mənbə hesab edir.

Kitabda "El bilsin, elə qalsın" adlı bir yazı xüsusilə diqqətimizi cəlb edir. Bu yazıda Hikmətin sanki öz xalqına nəyi əmanət elədiyinin mənaca açımına diqqət yönəlir. Hər bir şair istəyər ki, yazdığı mənsub olduğu xalqın malı olsun. Canlı dilin təbirincə desək, yəni şairin demək istədikləri sinəsində qalmasın. Hətta lap kağıza yazılsa belə, yenə kağızın üzərində də qalmasın. Şairin yazdıqları elin malı olsun.

Həqiqətən hər bir sənətkarın xalqla özü arasındakı körpünü xalqa çatan sözü yaradır. Əgər şair öz yaradıcılığı ilə belə bir körpünü yarada bilmirsə, yəqin ki, onun sözü də xalqa yetməyəcək.

Hikmət Mahmud xalqla nəfəs alan şairdir, ziyalıdır. Ona görə də o, hər bir vaxt xalqın kədərini, ağrısını, dərdini özününkü bilib. H.Mahmudun xalq yanğısı ilə yaşamasını "Özü Hikmət, sözü Hikmət" kitabının müəllifi də demək olar ki, əvvəldən axıra qədər müşahidə edir və bu müşahidələrini diqqətdə saxlayır. Müəllif yazır: *"Zəngin və hərtərəfli həyat yolu keçərək müstəqilliyinə qovuşmuş Azərbaycanın şairi olmaq onun ən üstün mənəvi tələbatıdır. Ancaq bu, o demək deyil ki, bu gün şair hər cəhətdən "fariğ" olub, hər cəhətdən razılıqla bir küncə çəkilib. Xeyr, belə də deyil, o, yenə sənətinə, peşəsinə uyğun şair-geoloq olaraq insan qəlbini, insan aləmini aramaqda, öyrənməkdədir. O, yaxşı görür ki, bu gün də çoxları var ki, salamı minnətə çevirməyə cəhd edir. Hörməti, etiramı vəzifəyə görə, mənsəbə görə, imkanlara görə dozalaşdırır. Məhz belələrini görmək ona imkan verir ki, şairlik qəzəbini sözü ilə üzə çıxarsın".* Müəllif bu məqamda H.Mahmudun özünün də insani duyğularını diqqətdən qaçırmır.



Əsas odur ki, H.Mahmud necə salamı minnətə çevirənləri tənqid edir və bununla xalq qarşısında özünün insanlıq borcunu yerinə yetirmiş olur. Eləcə də ədəbi-tənqidi yazılarında müəllif də bunu aşkarlayıb oxucuya çatdırmağı özünün mənəvi borcu bilir. Bu yerdə salamın minnətə çevrilməsi haqqında yazılmış böyük Füzulinin məşhur "Şikayətnamə"si də yada düşür. Məhz bu məqamda Ə.Xələfli H.Mahmudun münasibətini də düzgün mənalandırır: *"Şair son dövr şeirləri içərisində "Salam verdim" adlı bir şeiri diqqəti cəlb edir, Əvvəlcə elə şairin sərlövhəsi ilə bağlı ilkin düşüncələrimizi sözə gətirək: Füzulinin məşhur "səcli nəsr" (qafiyəli) üslubunda qələmə aldığı "Şikayətnamə" əsəri burada yada düşür. Əsərin qəhrəmanı, lap bir az da dəqiqləşdirsək, şairin özü sultan fərmanı ilə, baratı ilə Ovqaf idarələrini gəzir, haqqını istəyir, hər yerdən onu əliboş qaytarırlar. Şairin həmin əsərdə zamana kəskin və aydın münasibəti indi dillərdə atalar sözü kimi məşhur olan məsələ çevrilərək yaşayır: "Salam verdim, rüşvət deyildir deyə almadılar". Sanki böyük Füzulinin hikməti elə bu gün də canlıdır. Və elə bu günün özü haqqındadır".* Zənnimcə, heç bir şərhə ehtiyac yoxdur və hər şey aydındır.

Əli Rza Xələflinin *"Özü Hikmət, sözü hikmət"* kitabında gələcək tədqiqatçılar üçün geniş imkanlar açacaq çoxlu dəyərli yazılar verilib: *"Səni sarsıtmaz zaman", "Şeyx Şamilə məhəbbətlə", "Bizim payızın əfsanəsi", "Şairin döyüş əzmi", "Döyüşsüz zaman yox", "Yaxşılığın dəyəri"* və s. göstərilən məqalələrin adlarından da bəlli olur ki, müəllif ustadı Hikmət Mahmuda həsr etdiyi kitabı sonuncu cümləsinə qədər ilhamla yaradıb.

Zaman keçəcək, bizdən dəyərli əşyalar yox, qiymətli sözlər qalacaq.

*17.08.2022*